

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 233 (24.370)

*15 dekabr 2023-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik




## Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin xarici işlər nazirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 14-də Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidanı qəbul edib.

Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı.

Dövlət başçıları və digər səviyyələrdə qarşılıqlı səfərlərin və təmasların əməkdaşlığımızın daha da möhkəmlənməsi işinə töhfə verdiyi bildirildi.

Söhbət zamanı əlaqələrimizin bundan sonra da bütün istiqamətlərdə daha da möhkəmlənəcəyinə əminlik ifadə olundu, əməkdaşlığımızın perspektivləri və qarşılıqlı maraqdoğuran digər məsələlər ilə bağlı fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**

## Gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti peşəkar gizir heyətinin hazırlanması məqsədilə Bakı, Gəncə şəhərlərində və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyində 3 xüsusi təyinatlı hərbi kolleci (bundan sonra – hərbi kollec) üç ay müddətində yaratsın və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

2. 2024-2025-ci tədris ilindən başlayaraq təhsil almaq üçün Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki ali təhsil müəssisəsinin bakalavriat səviyyəsinə, o cümlədən bakalavriat səviyyəsinin hazırlıq kursuna (bundan sonra – ali təhsil müəssisəsi) və hərbi kolleclərə qəbul olunmuş kursantlar üçün 500 (beş yüz) manat, hərbi liseylərə qəbul olunmuş kursantlar üçün 300 (üç yüz) manat məbləğində birdəfəlik ödəmə təsis edilsin.

3. 2024-2025-ci tədris ilindən başlayaraq bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulan təhsil müəssisələrində təhsil alan kursantlar üçün təhsil müddətində aşağıdakı aylıq ödəmələr təsis edilsin:

3.1. ali təhsil müəssisəsi üzrə:

3.1.1. 150 (yüz əlli) manat məbləğində təqaüd;

3.1.2. 200 (iki yüz) manat məbləğində ailə üzvlərinə maddi yardım;

3.1.3. 200 (iki yüz) manat məbləğində hesabda yığılan ödəniş;

3.2. hərbi kolleclər üzrə:

3.2.1. 100 (yüz) manat məbləğində təqaüd;

3.2.2. 200 (iki yüz) manat məbləğində ailə üzvlərinə maddi yardım;

3.2.3. 150 (yüz əlli) manat məbləğində hesabda yığılan ödəniş;

3.3. hərbi liseylər üzrə:

3.3.1. 50 (əlli) manat məbləğində təqaüd;

3.3.2. 100 (yüz) manat məbləğində ailə üzvlərinə maddi yardım;

3.3.3. 100 (yüz) manat məbləğində hesabda yığılan ödəniş.

4. 2024-2025-ci tədris ilindən başlayaraq ali təhsil müəssisəsinə və hərbi kolleclərə daxil olan kursantlar həmin təhsil müəssisələrindən məzun olaraq Azərbaycan Ordusunda 5 təqvim ili zabit və ya gizir kimi həqiqi hərbi xidmət keçdikdən sonra yaşayış sahəsinin alınması üçün Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına güzəştli ipoteka kreditindən istifadə etdikdə müvafiq yaşayış sahəsinin qiymətinin 15 faizədək olan hissəsi dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilsin.

5. Müəyyən edilsin ki:

5.1. bu Fərmanın 3.1.3-cü, 3.2.3-cü və 3.3.3-cü yarımbəndlərində göstərilən ödənişlər bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulan kursantların hər biri üçün açılmış hesabda yığılır;

5.2. bu Fərmanın 5.1-ci bəndinə uyğun olaraq hesabda yığılan vəsait və həmin vəsaitin idarə olunmasından əldə edilən gəlir aşağıdakı hallarda ödənilir:

5.2.1. ali təhsil müəssisəsini və hərbi kollecləri bitirmiş məzunlara – Azərbaycan Ordusunda müvafiq qaydada zabit və ya gizir kimi vəzifəyə təyin edilərək həmin vəzifənin icrasına başladıqda;

5.2.2. hərbi liseyləri bitirmiş məzunlara – ali təhsil müəssisəsinə qəbul olduqda;

5.3. bu Fərmanın 2-ci və 3-cü hissələrində nəzərdə tutulan ödəmələr (bundan sonra – ödəmələr) dövlət büdcəsinin vəsaiti hesabına Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən ödənilir;

5.4. bu Fərmanın 4-cü hissəsində nəzərdə tutulan şəxslər güzəştli ipoteka kreditindən istifadə etdikdə onlara "Azərbaycan Ordusunun hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 28 dekabr tarixli 569 nömrəli Fərmanının müddəaları şamil olunmur.

6. Hərbi kolleclərin fəaliyyətinin təşkili və zəruri infrastrukturun yaradılması məqsədilə Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə ilkin olaraq 2 (iki) milyon manat məbləğində vəsait ayrılsın.

7. Azərbaycan Respublikasının Nazirlər Kabineti üç ay müddətində:

7.1. "Gənclərin Azərbaycan Respublikası Müdafiə Nazirliyinin xüsusi təyinatlı təhsil müəssisələrində təhsil almalarına dair 2024-2033-cü illər üçün Tədbirlər Planı"nın layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.2. ödəmələrin verilməsi, vəsaitlərin hesablarda yerləşdirilməsi və idarə edilməsi, habelə hesabda yığılan vəsaitin idarə olunmasından əldə edilən gəlirlər də daxil olmaqla həmin vəsaitlərin ödənilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

7.3. bu Fərmanın 4-cü hissəsinə uyğun olaraq güzəştli ipoteka krediti üzrə yaşayış sahəsinin qiymətinin 15 faizədək olan hissəsinin maliyyələşdirilməsi, habelə güzəştli ipoteka kreditinin bir hissəsinin ödənilməsinə dövlət tərəfindən maliyyə dəstəyi göstərilməsi ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

8. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi:

8.1. bu Fərmanın 2-4-cü hissələrində nəzərdə tutulan ödəmələrin maliyyələşdirilməsi məqsədilə tələb olunan vəsaitə dair təkliflərini müvafiq illərin dövlət büdcəsində nəzərdə tutulması üçün Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

8.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

9. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 6-cı hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 14 dekabr 2023-cü il*




## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sosial siyasət komitəsinin iclası keçirilib



Dekabrın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sosial siyasət komitəsinin iclası keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sosial siyasət komitəsinin sədri Yeganə Məmmədova diqqətə çatdırıb ki, iclasın gündəliyinə 2 məsələ – "İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi və "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsinin müzakirəsi daxildir.

Komitə sədri qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin digər regionlarında olduğu kimi, Naxçıvan Muxtar Respublikasının da sosial-iqtisadi inkişafı təmin edilərək, əhalinin maddi rifah halının davamlı şəkildə yüksəlməsi, təhsil, səhiyyə, sosial müdafiə, sosial təminat, idman, mədəniyyət müəssisələrinin, istehsal sahələrinin və müxtəlif təyinatlı obyektlərin qurulması daim diqqətdə saxlanılıb. Bunun nəticəsində cari ildə muxtar respublikada iqtisadi sabitliyə nail olunub, müdafiə, ərzaq və enerji təhlükəsizliyi məsələləri təmin edilib, sosial-iqtisadi islahatların əhatə dairəsi genişlənib. Naxçıvanda çoxşaxəli iqtisadiyyatın formalaşdırılması və sosial sahənin inkişafı istiqamətində həyata keçirilən tədbirlər ölkəmizdə "Heydər Əliyev İli" elan edilmiş 2023-cü ildə uğurla davam etdirilib, inkişafın keyfiyyətcə yeni mərhələsinə qədəm qoyulub. Muxtar respublikada iqtisadiyyatın inkişafının davamlılığının təmin edilməsi, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması, məşğulluğun və maddi rifahın yüksəldilməsi məqsədilə dövlət başçısının müvafiq Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" təsdiq edilib. Dövlət Proqramında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsinə nail olunması üçün məqsədlər və prioritet istiqamətlər müəyyən edilib.

Diqqətə çatdırılıb ki, müzakirəyə çıxarılan "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi də məhz əhalinin sosial müdafiəsinin gücləndirilməsinə və sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəldilib. 2024-cü il üçün işsizlikdən sığorta fondunun gəlir və xərcləri bərabər

*Ardı 2-ci səhifədə*





olaraq 6 milyon 118 min 319 manat nəzərdə tutulub ki, bu da 2023-cü ilin müvafiq göstəricisi ilə müqayisədə 1 milyon 374 min 598 manat və ya 29 faiz çoxdur. Qanun layihəsinə nəzər saldıqda 2024-cü il işsizlikdən sığorta





fondunun büdcəsinin gəlirlərinin strukturu və mənbəyi, eyni zamanda ayrı-ayrı gəlir növləri üzrə daxilolmalar, xərclərin struktur və istiqamətləri əhatəli şəkildə proqnozlaşdırılıb. İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsinin müzakirələrdən sonra qəbulunun muxtar respublikada sığortaolunanların itirilmiş əməkhaqlarının kompensasiya olunmasına və işsizliyin yaranması hallarının qarşısının alınması üçün əhalinin sosial müdafiəsinin gücləndirilməsinə təminat verəcək.

Bildirilib ki, 2023-cü ildə muxtar respublikada işsizlikdən sığorta müavinətinin ödənilməsi zamanı əlavə vəsaitə ehtiyac olduğundan, nəticədə, “İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi zərurəti yaranıb.

Gündəlikdə duran məsələlərlə bağlı Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Aparatının rəhbəri Fərid Bağırzadə çıxış edib, “İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununda ediləcək dəyişiklik, “İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi və büdcə proqnozu barədə ətraflı məlumat verib.

Sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlanılıb.

Müzakirələrdə deputatlardan İsa Məmmədov, Fərəc Fərəcov, Turan Məmmədli, Yazgül Rzayeva, Ali Məclisin Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdiri Cəlil Rüstəmov suallar səsləndirib, təkliflərini bildiriblər.

Qaldırılan suallara Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Aparatının rəhbəri Fərid Bağırzadə, Nazirlər Kabineti Aparatının Humanitar və sosial məsələlər şöbəsinin müdiri Sevinc Cabbarova aydınlıq gətiriblər.



Müzakirələrdən sonra qanun layihələrinin altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin payız sessiyasının növbəti iclasına təqdim olunması üçün qərar qəbul edilib.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Bulaq-abidənin açılış mərasimi olub




*Şərur rayonunun Dizə kəndində Vətən müharibəsi şəhidi Vüsal Vəliyevin xatirəsini əbədiləşdirmək üçün inşa edilən bulaq-abidənin açılış mərasimi olub. Öncə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycanın Dövlət Himni səsləndirilib.*

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin media məsələləri üzrə məsul şəxsi Günay Malikqızı çıxış edərək bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən şəhid ailələri və qazilər daim diqqətdə saxlanılır. Şəhid və qazilərimizin Vətən qarşısındakı xidmətləri dövlətimiz və xalqımız tərəfindən yüksək qiymətləndirilir. Bu gün Vətən qarşısında xidməti olanlara hərtərəfli qayğı göstərilir, şəhid ailələri və qazilər mənzil və avtomobillə təmin olunurlar. Ölkəmizdə Ümummilli Liderimiz Heydər Əliyevin siyasi xətti uğurla davam etdirilir.

Qeyd olunub ki, muxtar respublikada da şəhid ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Ölkəmizin iqtisadi imkanları, mövcud sabitlik, dövlət-xalq birliyi istənilən sosial tədbirlərin həyata keçirilməsinə imkan verir. Şəhidlərimizin, qazilərimizin qəhrəmanlıqları bundan sonra da unudulmayacaq, şəhid ailələri, şəhid övladları daim dövlətimizin himayəsi altında yaşayacaqlar. Şəhid ailələri Vətən uğrunda canlarını qurban verən igid oğullarının itkisini ailələrinin faciəsi kimi deyil, xalqın qəhrəmanlıq nümunəsi kimi qarşıladılar. Azərbaycan xalqı belə igid oğulların və





onları dünyaya gətirən anaların sayəsində daim var olacaq.

Tədbirdə çıxış edən “Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin sədri Sahil Tahirli müasir Azərbaycanın təməlinin Ulu Öndər tərəfindən Naxçıvanda qoyulmasından, həmin çətin illərdə insanlar dahi rəhbərin ətrafında sıx birləşərək qədim yurdu düşməndən qorumasından, Sədərəkdən Şuşaya gedən yoldan bəhs edib. Bildirilib ki, Birinci Qarabağ müharibəsində Vətəni müdafiə edən ataların oğulları şanlı bayrağımızı Şuşaya, Laçına sancdı. Naxçıvanın igid oğulları buradan Qarabağa gedərək “dəmir yumruğ”un bir hissəsi oldular. Qanları, canları ilə Vətənin bir parçasını azad etdilər.

Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov dahi rəhbərin xalqımız qarşısındakı misilsiz xidmətlərindən və ordumuzun rəşadətindən, Ali Baş Komandanın uğurlu siyasətindən danışaraq vurğulayıb ki, cəsur oğullarımızın şücaəti hesabına ərazi bütövlüyümüz təmin edildi; cari ilin sentyabr ayında keçirilən lokal xarakterli antiterror tədbirlərində də Azərbaycan Ordusu öz gücünü bütün dünyaya göstərdi.





Qeyd olunub ki, I və II Qarabağ müharibələrində şərurlular da Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə fəal iştirak edib. I Qarabağ müharibəsində 72, II Qarabağ müharibəsində 31 olmaqla, 103 nəfər müqəddəs şəhidlik zirvəsinə ucalıb. Belə cəsur döyüşçülərimizdən biri də Dizə kəndinin yetirməsi mayor Vüsal Vəliyevdir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşı Naib Əlizadə ölkəmizdə şəhid ailələrinə və qazilərimizə göstərilən qayğıdan danışıb. Bildirib ki, Vətən uğrunda sağlamlığını itirmiş oğullar, övladlarını Vətənə qurban verən valideynlər, şəhidlərimizin övladları dövlətimizin qayğısı əhatəsindədirlər.

Tədbirdə şəhid anaları adından Vətən müharibəsi şəhidi Raqib Hüseynovun anası Rəna Hüseynova, şəhid ataları adından şəhid Zülal Mədətlinin və Aqil İsmayılovun ataları, “Naxçıvan Qaziləri” İctimai Birliyinin sədr müavini Əli Əlisoy, şəhidin kursant yoldaşı Amil Tağıyev çıxış ediblər. Bildirilib ki, Vüsal Vəliyev döyüşlərdə göstərdiyi şücaətlərə görə ölkə başçısı tərəfindən “Azərbaycan Bayrağı” ordeni, “Kəlbəcərin azad olunmasına görə”, “Vətən uğrunda”, “İgidliyə görə” medalları ilə təltif edilib.

Tədbirdə Vüsal Vəliyevin anasına onun kursant yoldaşı Amil Tağıyev tərəfindən Vüsalın Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış kursant yoldaşlarının – 14 şəhidin fotosu əks olunmuş saat hədiyyə edilib.

Sonda məktəblilər Vətənə və şəhidlərimizə həsr olunmuş şeirlər söyləyiblər.

Şəhidin anası Mədinə xanım, qardaşı Əpoş Vəliyev iştirakçılara, bulaq-abidə kompleksinin inşa olunmasında göstərdikləri köməyə görə iş adamı Nurlan Vəliyevə, gənc memar Anar Sadiqova minnətdarlıqlarını bildiriblər.

**✍ Ramiyyə ƏKBƏROVA**

# Ulu Öndərin 100 illiyinə həsr olunmuş kitabın təqdimatı keçirilib



*AMEA Naxçıvan Bölməsində İncəsənət, Dil və Ədəbiyyat İnstitutu tərəfindən nəşrə hazırlanan “Heydər Əliyev: həyatı və siyasi fəaliyyəti” kitabının təqdimatı keçirilib.*

Tədbirdə bölmənin sədri, akademik İsmayıl Hacıyev diqqətə çatdırıb ki, “Heydər Əliyev İli” çərçivəsində ölkəmizdə, eləcə də muxtar respublikada mühüm mədəni-kütləvi tədbirlər, elmi konfranslar, kitab təqdimatları və sərgilər təşkil olunur, əsərlər nəşr edilir. Bütün bunlar Ulu Öndər irsinin daha dərindən öyrənilməsinə xidmət edir.

Bölmə sədri bildirib ki, Ümummilli Liderin 100 illiyinə həsr olunmuş “Heydər Əliyev: həyatı və siyasi fəaliyyəti” kitabı “Taleyi və sənəti” seriyasından olan 17-ci kitabdır. Burada 15 tədqiqatçının Ulu Öndər Heydər Əliyevin çoxcəhətli fəaliyyətindən bəhs edən elmi məqalələri yer alıb.

Daha sonra AMEA-nın müxbir üzvləri, professor Əbülfəz Quliyev və professor Vəli Baxşəliyev məruzə ediblər.

Məruzələrdə Ulu Öndərin xalqımız və dövlətimiz üçün mühüm xidmətlərindən, Türk dünyasının birliyi uğrunda fəaliyyətindən, tariximizə göstərdiyi qayğıdan söz açılıb. Qeyd olunub ki, Heydər Əliyev elmin inkişafına, elm adamlarına daim qayğı göstərmiş, Azərbaycan Milli Elmlər Akademiyasının fəaliyyətinə xüsusi önəm vermişdir.

Mərasimdə çıxış edən İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun əməkdaşı Zaman Abbaslı əsərin əhatə etdiyi mövzular barədə ətraflı məlumat verib. “Azərbaycan elminin böyük hamisi”, “Ümummilli Lider Heydər Əliyevin Azərbaycançılıq məfkurəsi: milli ideologiya, ana dili və ədəbiyyat siyasəti”, “Heydər Əliyev və Azərbaycanda türkologiyanın inkişafı”, “Bir şəklin tarixçəsi” və başqa məqalələrdə tədqiqata cəlb olunan mühüm məsələləri nəzərə çatdırıb.

***AMEA Naxçıvan Bölməsinin***
***mətbuat xidməti***

***Dekabr ayı ərzində dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizdən alınmış müsahibələri, onların hazırladığı yazıları “Şərq qapısı” qəzetində görəcəksiniz.***

# Həmrəyliyimizin ən böyük ideyası – Azərbaycançılıq



## Şahbuzdan Sankt-Peterburqa uzanan körpü

Müasir dövr Azərbaycan tarixi istər Vətənimizdə, istərsə də onun hüdudlarından kənarda yaşayan həmvətənlərimizin bir yumruq kimi birləşib vahid məqsəd uğrunda mübarizəsi ilə xarakterizə olunur. Taleyin hökmü ilə dünyanın müxtəlif yerlərində yaşayıb fəaliyyət göstərən azərbaycanlılar harada olmalarından asılı olmayaraq, həmişə ana Vətən Azərbaycanla nəfəs alıb, onun uğuruna sevinib, dar günündə həmrəy olmağa can atıblar. Belə həmvətənlərimizdən biri də Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində yaşayan Müslüm Muradovdur. Həmrəylik ayında Müslüm müəllimlə əlaqə saxlayıb qəzetimiz üçün yazı hazırlamaq niyyətimizi bildirəndə çox sevindi.

Müslüm müəllimlə, təxminən, 13 il əvvəl, 2010-cu ilin yayında dövlət tədbirində iştirak üçün Naxçıvana dəvət edilmiş Sankt-Peterburqda çalışan elm və iş adamları ilə bir görüşdə tanış olmuşduq. Daha sonra beynəlxalq konfransla əlaqədar Sankt-Peterburqa səfərim zamanı dəyərli ziyalımızla daha yaxından tanış olub, onun bir azərbaycanlı kimi təəssübünü görmüşdüm. O zaman yenicə müdafiə etmiş bir həmyerlisinin Beynəlxalq Turizm Akademiyasının konfransında iştirak etmək üçün Naxçıvandan Rusiyanın mədəniyyət paytaxtına səfər etməsinin Müslüm müəllimi nə qədər sevindirdiyini indi də xatırlayıram. Ona görə də bu dəfə onun fəaliyyəti haqqında bir yazı yazmaq fikrimi bildirəndə həmin köhnə xatirələr yenidən canlandı.



Müslüm Sultan oğlu Muradov 1971-ci il avqustun 14-də Qərbi Azərbaycanın Dərələyəz mahalının Qaraqaya kəndində anadan olub. 1978-ci ildə atasının başqa işə keçməsi ilə əlaqədar ailəsi Naxçıvana, Şahbuz rayonunun Ayrınc kəndinə köçüb. Burada orta məktəbi əla qiymətlərlə bitirəndən sonra 1988-ci ildə ozamankı Leninqrad İnşaat Mühəndisləri İnstitutuna daxil olub, 1996-cı ildə Sankt-Peterburq Memarlıq-İnşaat Universitetini Sənaye və mülki tikinti mühəndisliyi ixtisası üzrə bitirib. Həmin ildə Sankt-Peterburq Memarlıq-İnşaat Universitetində aspiranturaya qəbul olub. Burada gənc aspirant Müslüm Muradov professor Boris Mixaylovun elmi rəhbərliyi ilə 2001-ci ildə “Kontrplak borulardan istifadə etməklə plitə-konstruksiyaların təkmilləşdirilməsi” mövzusunda namizədlik dissertasiyasını müdafiə edib və universitetdə elmi fəaliyyətə başlayıb. Elmi işlə yanaşı olaraq 1996-cı ildə “İnterles” Məhdud Məsuliyyətli Cəmiyyətini quraraq bu günə qədər baş icraçı direktor kimi uğurlu biznes fəaliyyətini də davam etdirir. Hazırda Sankt-Peterburq şəhərində yaşayır, elmi fəaliyyəti ilə yanaşı, xeyriyyəçi və ictimai işlərdə də fəallığı ilə yaxşı tanınır.



Müslüm müəllim tanınmış ziyalı və uğurlu iş adamı olmaqla yanaşı, əsl diaspor fəalı, ölkəmizi hər yerdə dəstəkləyən vətənpərvərdir. O bu fəaliyyətini, necə deyərlər, vaxtı olanda deyil, gündəlik iş planına daxil olan təşkilati işlər qaydasında həyata keçirir. Şübhəsiz, 380 minə yaxın üzvü olan Sankt-Peterburq Azərbaycan diaspor təşkilatının qurucularından biri və rəyasət heyətinin üzvü kimi onun bu sahədəki fəaliyyəti də çoxşaxəli olmalıdır. Belə ki, Sankt-Peterburqda yaşayan və fəaliyyət göstərən Azərbaycan diasporunun Rusiyada ən aktiv olması və nüfuz qazanması burada təmsil edilən həmyerlilərimizin daim birlik içində olmaları, onların bütün məsələlərdə vahid bir ailə kimi toplanıb yekun fikrə gəlmələri ilə sıx bağlıdır. Müxtəlif illərdə onun da fəal üzvü olduğu Sankt-Peterburqdakı diasporumuz Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin inkişafı və stabilliyi üçün xeyli işlər görmüş, ölkəmizdən 3 min kilometr uzaqda bir çox hallarda çətinliklərlə qarşılaşsalar da, bu şəhərdə və vilayətin digər bölgələrində Azərbaycan reallıqlarını dünyaya çatdırmaq məqsədilə elmi konfranslar, milli folklor konsertləri, incəsənət proqramları, muğam tədbirləri, teatr tamaşaları, poeziya axşamları təşkil etmiş, 20 Yanvar və Xocalı soyqırımı günlərində anım tədbirləri keçirmişlər.

Ötən dövrdə Sankt-Peterburq Azərbaycan diasporu üçün ən yaddaqalan mühüm hadisələr, şübhəsiz, 2002-ci ildə Ümummilli Liderimiz Heydər Əliyev və Rusiya prezidenti Vladimir Putinin iştirakı ilə Sankt-Peterburq şəhərində görkəmli şairimiz Nizami Gəncəvinin abidəsinin açılışı və 2005-ci ildə dövlət başçımız cənab İlham Əliyevin iştirakı ilə Ulu Öndərin 1949-1950-ci illərdə ali təhsil aldığı, şəhərin Qoroxovaya küçəsində yerləşmiş SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin ali məktəbinin binasına xatirə lövhəsinin vurulması tədbirləri olmuşdur. Bundan ruhlanan diaspor üzvləri fəaliyyətlərini daha da artıraraq 2008-ci ildə Mədəni İnformasiya Mərkəzi – “Naxçıvan” Cəmiyyəti yaradır və Müslüm müəllim də həmin təşkilatın sədrinin birinci müavini seçilir. Bu təşkilatın yaradılmasının tarixçəsi isə olduqca maraqlıdır. Belə ki, Moskvada güclü olan erməni diasporu o dövrdə “Naxçıvan” adlı üzdəniraq bir kilsə tikmək qərarına gəlir və hətta bu adla bir neçə veb-sayt da yaradırlar. Buna cavab olaraq Sankt-Peterburq Azərbaycan diasporu tərəfindən “Naxçıvan” Cəmiyyəti yaradılaraq saxta erməni təbliğatı ifşa olunur. 2011-ci ildə isə Müslüm Muradov Dünya Azərbaycanlılarının III Qurultayında Sankt-Peterburq diaspor heyətinin üzvü kimi iştirak edərək milli diaspor hərəkatındakı həmvətənlərimiz arasında əlaqələrin güclənməsinə öz töhfəsini vermişdir.



Müslüm Muradov hərtərəfli fəaliyyəti ilə ölkəmizi onun hüdudlarından kənarda layiqincə təmsil edən azərbaycanlılardandır. O, gənclərin dostu, sənət, poeziya həvəskarı və ən vacibi xaricdə ölkəmizə antitəbliğat aparanlara qarşı mübarizənin də fəal üzvüdür. Diaspor üzvləri təkcə Sankt-Peterburq vilayətində deyil, Rusiyanın digər yerlərində yaşayan həmyerlilərimizə kömək etmək, xüsusən tələbələrin təhsil almasında və gələcəkdə ölkəmizə faydalı insanlar kimi yetişməsində dəstək göstərməkdə həmişə həmrəydirlər. Elə Müslüm müəllimin iki oğlu – Coşqun və Ramal da Sankt-Peterburqun tanınmış universitetlərini magistr dərəcəsi ilə bitirərək burada mühüm mövqelər tutmağa müvəffəq olub və hətta Sankt-Peterburq Azərbaycan Gənclər Birliyinin idarə heyətinin üzvləri seçiliblər.

Ölkəmizə qarşı 30 il ərzində davam etmiş erməni işğalı harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının ürəyinin yarası olub. Soydaşlarımız erməni faşizminin başının əzilməsini həsrətlə gözləyib və 2020-ci ilin 8 noyabrında arzuladıqları həmin o günə qovuşublar. Ermənistanın ağ bayraq qaldırıb təslim olduğu Böyük Zəfər Gününə gedən yolda Ali Baş Komandanımızın rəhbərliyi ilə döyüşə atılan qəhrəman əsgərlərimizin şücaəti qürbətdəki azərbaycanlıların da qürur mənbəyi, dilinin əzbəri olmuşdur. Qələbəmizdən sonra Rusiyada yaşayan ən böyük Azərbaycan diasporu təşkilatlarından biri olan Sankt-Peterburqdakı azərbaycanlılar da xalqımızın sevincini qürurla bölüşürdülər. Çünki onlar da digər fəal soydaşlarımız kimi dəfələrlə Rusiyada güclü olan erməni lobbisinin təxribat cəhdlərinin qarşısını almaq üçün yayılan əsassız və feyk xəbərlərə, qərəzli çıxışlara, Azərbaycanın qarşılaşdığı ədalətsizliklərə qarşı etiraz edirdilər. Sankt-Peterburqdakı diaspor üzvlərinin dəstəyi ilə Rusiya Yazıçılar İttifaqının üzvü İqor Pompeyevin yazdığı “20 Yanvar hadisələrinin acı həqiqətləri” adlı kitabın geniş tirajda çap olunması bu baxımdan diqqətçəkicidir. Ayrıca olaraq şair təbiətli Müslüm müəllimin Böyük Zəfərimizlə bağlı qələmə aldığı şeirləri də dostları, onu tanıyanlar tərəfindən həvəslə oxunub paylaşılır.

Müslüm Muradov Rusiyada yaşayan milyonlarla azərbaycanlıdan biridir. Təhsili, iş və biznesi ilə əlaqədar o ılıq Baltik sahillərini seçsə də, özü və yaxınları üçün isti ana qucağı – Azərbaycan həmişə doğma və əzizdir. İlin, günün hansı dövrü olsa da, Muradovlar ailəsi üçün Şahbuzdan Sankt-Peterburqa uzanan etibarlı bir körpü vardır. Bu, Ulu Öndər Heydər Əliyevin xalqımıza miras qoyduğu dünya azərbaycanlılarının həmrəylik bağıdır. Həmrəylik ayında Müslüm müəllimin “Şərq qapısı” qəzetinin dəyərli oxucularına hədiyyəsi isə onun vətənpərvərlik ruhu dolu şeirləridir.

**Əli CABBAROV**

## ŞUŞAM mənim

Qarabağın ürəyi, yurdumun bəzəyisən,
İgidlərin məskəni, yerlərin göyçəyisən,
Çiçəklərin incəsi, sən Xarı çiçəyisən.
Alınmaz qalam mənim,
Qürurum, Şuşam mənim.

Xan bağının ətirli xarıbülbül çiçəyi,
Cıdır düzüm, Topxanam,
İsa bulağım mənim.
Cənnətməkanım mənim,
Qürurum, Şuşam mənim.

Muğamın beşiyisən, Üzeyirin bəstəsi,
Xan əminin “Zabul”u, Cabbarın “Şikəstə”si,
Bülbülün həzin səsi, Rəşidin zümzüməsi,
Mədəniyyət ocağım,
Varlığım, Şuşam mənim.

Cismən ayrı yaşadıq, səndən ayrı olmadıq,
Bu illərdə bir an da biz səni unutmadıq,
Həmişəlik qayıtdıq, uzun həsrəti atdıq.
Şükür qovuşdurana,
Cənnətməkanım mənim,
Varlığım, Şuşam mənim.

Vaqifin şeiriyyəti, Natəvanın qəzəli,
Qarabağın incisi, Azərbaycan gözəli!

**Müslüm MURADOV**

# Naxçıvanın “yaşıl gələcəyi” prioritet istiqamətlərdəndir

Çoxsaylı faydalı qazıntıları ilə seçilən Naxçıvan həm də “yaşıl” sərvətləri ilə zəngindir. Son dövrlərdə Azərbaycanda alternativ və bərpaolunan enerji mənbələrindən istifadədə bir çox regionlarla (xüsusilə Qarabağ və Şərqi Zəngəzur) bərabər, Naxçıvanın da adı çox çəkilir. Bu da təsadüfi deyil. Çünki muxtar respublikanın yerləşdiyi əlverişli coğrafi mövqe və iqlim şəraiti imkan verir ki, ekoloji cəhətdən təmiz və bərpaolunan alternativ enerji mənbələrindən geniş istifadə edilsin. Bu sırada isə Günəş enerjisindən istifadə imkanları daha çox ön plandadır. Aparılan hesablamalara görə, muxtar respublika ərazisində günəşli saatların ortaillik miqdarının 2600-2800 saat, hər kvadratmetrə düşən Günəş enerjisinin intensivliyi 0,8-1,2 kilovatsaat təşkil edir. Bu isə soyuq fəsillərdə belə Günəş enerjisindən istifadə etmək imkanlarını ortaya qoyur.



Muxtar respublikada günəş elektrik stansiyalarının tikilməsinə son illərdə başlanılıb. Həmçinin stansiyaların layihələndirilməsi zamanı yaşayış məntəqələrinə yaxın əkinəyararsız ərazilərdə qurulması nəzərə alınıb ki, bu da istehsal olunan elektrik enerjisini istehlakçılara daha az itki ilə çatdırmağa imkan verir. İlk dəfə olaraq 2015-ci ildə Babək rayonunun Xalxal kəndi yaxınlığında 20 meqavat gücündə Naxçıvan Günəş Elektrik Stansiyasının tikilib istifadəyə verilməsi və 2017-ci ildə stansiyanın gücünün daha 2 meqavat artırılması, həmçinin 2019-cu ildə Kəngərli rayonunun Qabıllı kəndi yaxınlığında 2 meqavat və 2020-ci ildə 3 meqavat gücündə Kəngərli Günəş Elektrik Stansiyasının istifadəyə verilməsi Naxçıvanın etibarlı enerji təminatına öz töhfəsini verib. Bu sahədə görülən işlərin davamı kimi Şərur rayonunun Zeyvə kəndi yaxınlığında 2021-ci ildə 5 meqavat və 2022-ci ildə 3 meqavat, 2023-cü ildə daha 3 meqavat gücündə yeni Şərur Günəş Elektrik Stansiyası, həmçinin Culfa rayonunda muxtar respublikada ilk dəfə olaraq 2021-ci ildə 1,1 meqavat gücündə Culfa Külək-Günəş Hibrid Elektrik Stansiyası, 2022-ci ildə 0,3 meqavat gücündə Culfa Külək Elektrik Stansiyası istismara verilib. Görülən işlərin nəticəsidir ki, muxtar respublikada elektrik enerjisinin istehsalında “yaşıl enerji”nin payı artıb. Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin məlumatına görə, hazırda günəş elektrik stansiyalarının gücü 39 meqavata, illik istehsal gücü 58,5 milyon kilovat-saata çatdırılıb.

Bu gün Naxçıvan Muxtar Respublikasında enerji təhlükəsizliyi məsələləri dövlət tərəfindən həyata keçirilən prioritetlər sırasındadır. Azərbaycan və Türkiyə prezidentlərinin bu il sentyabrın 25-də Naxçıvanda görüşündə cənab İlham Əliyevin dediyi kimi: ***“...Naxçıvanın qazı, nefti olmasa da, Günəşi var və Naxçıvanda günəş elektrik stansiyalarının inşası ilə bağlı bizim böyük planlarımız var. Bu planlar gerçəkləşərsə, Naxçıvan yaşıl enerji zonasına çevrilə bilər. Çünki burada həm günəş, həm külək, eyni zamanda su elektrik stansiyalarının inşası üçün böyük potensial var və gələcəkdə Naxçıvandan Türkiyəyə ən azı 1000 meqavat həcmində yaşıl enerji ixracı da mümkün olacaqdır”.***

Ölkəmizin ərazi bütövlüyü və suverenliyi təmin olunduqdan sonra Qarabağ və Şərqi Zəngəzurda istehsal olunacaq “yaşıl enerji”nin Naxçıvan vasitəsilə Türkiyə və Avropa bazarlarına çıxarılması ölkəmizin enerji prioritetləri sırasındadır. Bu isə Naxçıvanın “yaşıl dəhliz”ə çevrilməsində mühüm rol oynayacaq. Bu il sentyabrın 28-29-da Naxçıvanda ilk dəfə olaraq Azərbaycan-Türkiyə 3-cü Enerji Forumu və “Naxçıvan – Yaşıl Enerji Zonası” Beynəlxalq konfransının keçirilməsi də yaxın gələcəkdə bu istiqamətdə mühüm addımların atılacağını göstərir. Təsadüfi deyil ki, “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda 11 prioritet istiqamətin biri də elektrik enerjisi istehsalının və ixracının artırılmasıdır. Digər tərəfdən proqram üzrə Naxçıvan Muxtar Respublikasının enerji sisteminin Avropa Elektrik Ötürmə Sistemləri Operatorları Assosiasiyasının (ENTSO-E) şəbəkəsinə qoşulması üçün tədbirlər görülməsi Naxçıvan Muxtar Respublikasında elektrik enerjisi istehsalı və ixracı potensialını artıracaq, bu isə ölkənin əlavə enerji gücləri hesabına dünya bazarına (Türkiyəyə və Avropaya) elektrik enerjisi satmaq imkanlarını və alternativlərini genişləndirəcəkdir. Bundan əlavə, “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də “təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi” beş prioritetdən biri kimi müəyyənləşdirilib və “2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda “yaşıl enerji məkanı” layihəsi üzrə müəyyənləşdirilən tədbirlər qarşıya mühüm vəzifələr kimi qoyulub. Buradan da göründüyü kimi, Azərbaycanda bərpaolunan enerji mənbələrindən geniş istifadə təkcə ölkəmizin enerji təhlükəsizliyi ilə bağlı deyil, həm də az karbonlu enerji sistemi və dayanıqlı gələcək qurmaq, həmçinin xaricdə enerji gücümüzə olan tələbatı ödəmək məqsədi daşıyır. Qarşıya qoyulan vəzifələrin və prioritet istiqamətlərin uğurla reallaşdırılması Naxçıvanın “yaşıl gələcəyi”nə də yaşıl işıq yandıracaq.

**Səbuhi HƏSƏNOV**

# 98 yaşlı Naxçıvan Dövlət Arxivi keçmişimizi özündə yaşadan zəngin mənbədir



***Sənədlər xəzinəsi olan arxivlər hər bir xalqın tarixində, ictimai-siyasi həyatında mühüm rol oynayır. 98 yaşlı Naxçıvan Dövlət Arxivi də muxtar respublikanın tarixi keçmişini özündə yaşadan zəngin mənbədir.***

Ölkəmizdə arxiv işinin təşkili 1920-ci ilin dekabrından başlayır. Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanovun imzaladığı "Vahid dövlət arxiv fondunun yaradılması və Xalq Maarif Komissarlığı yanında Mərkəzi Dövlət Arxivinin təşkili haqqında" dekreti əldə rəhbər tutan Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsi 1925-ci ildə Naxçıvan MSSR-də Mərkəzi Dövlət Arxivinin yaradılması haqqında Qərar qəbul edib.

Naxçıvan MSSR Mərkəzi Dövlət Arxivi Naxçıvan MSSR Xalq Maarif Komissarlığının tərkibində fəaliyyət göstərib, Azərbaycanda arxiv orqanlarının yenidən təşkili ilə əlaqədar 1930-cu ildə Naxçıvan MSSR Mərkəzi Dövlət Arxivi fondu təşkil edilib. 1960-cı ilə qədər Arxiv İdarəsi və Mərkəzi Dövlət Arxivi Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığının tabeliyində olub. XX əsrin 60-cı illərində muxtar respublikada bu təşkilat Daxili İşlər Nazirliyinin tabeliyindən çıxarılıb Nazirlər Sovetinin tabeliyinə verilib.

Dövlət arxivlərinə əsl qayğı Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə başlayıb. Arxivlər genişləndirilib, ixtisaslı kadrlarla təmin olunub, onların maddi-texniki bazası möhkəmləndirilib. 1979-cu ildə Babək rayonunda, 1990-cı ildə Sədərək rayonunda, 2004-cü ildə isə Kəngərli rayonunda arxivlər yaradılıb.

Arxiv sənədlərinə nəzər salsaq, görərik ki, Ümummilli Liderin gənclik dövrünün bir neçə ili (1941-1943) Naxçıvan Dövlət Arxivi ilə bağlı olub. Belə ki, 15 oktyabr 1941-ci il tarixdə 80 nömrəli əmrlə Naxçıvan MSSR Daxili İşlər Xalq Komissarının razılığı ilə (baş leytenant Quliyev) Əliyev Heydər Əlirza oğlu Naxçıvan MSSR Daxili İşlər Xalq Komissarlığının Mərkəzi Dövlət Arxivinə elmi işçi vəzifəsinə qəbul olunmuş, 6 iyun 1942-ci il tarixli 121 nömrəli əmrlə Dövlət Arxivinin Məxfi şöbəsinə müdir vəzifəsinə təyin edilmişdir. O, burada uzun illər Naxçıvan Arxiv İdarəsinə rəhbərlik etmiş Paşa Əhmədov, Kərim Bayramov və başqaları ilə çiyin-çiyinə çalışmış, Dövlət Arxivində işlədiyi müddətdə respublikada, o cümlədən Ordubad, Culfa, Əbrəqunus rayonlarında arxivlərin qaydaya salınmasında, təşkilatlarda yaranmış sənədlərin arxivə təhvil verilməsində xüsusi xidmətləri olmuşdur. 1943-cü il iyulun 3-nə kimi Naxçıvan Dövlət Arxivinin Məxfi şöbəsinin müdiri vəzifəsində çalışan Heydər Əliyev 14 iyul





1943-cü il tarixdə Naxçıvan MSSR Xalq Komissarlar Sovetində Ümumi şöbəyə müdir təyin olunmuşdur. Daha sonra isə Ulu Öndəri bilik və bacarığına görə dövlət təhlükəsizlik orqanlarına işə qəbul etmişlər.

Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycana birinci və ikinci rəhbərliyi dövründə digər sahələrə olduğu kimi, arxiv işinin inkişafına da xüsusi diqqət yetirmişdir. Müstəqilliyimizin bərpasından sonra respublikamızda arxiv sahəsində yeni normativ-hüquqi aktlar yaradılmış, "Milli Arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Həmçinin "Azərbaycan Respublikasında arxiv işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 dekabr tarixli Fərmanı ilə Arxiv İdarəsinin statusunun qaldırılması, arxiv xidməti təşkilatlarının maddi-texniki təchizatının təkmilləşdirilməsi, arxiv binalarının təmiri və bərpa işlərinin aparılması, arxiv işçilərinin sosial vəziyyətlərinin yaxşılaşdırılması





nəzərdə tutulmuşdur. Bu Fərmandan sonra Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsi Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Arxiv İdarəsinin bazasında yenidən yaradılmışdır.

Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsinin tabeliyində muxtar respublika Dövlət Arxivi, 7 rayon və şəhər arxivi fəaliyyət göstərir. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində XIX əsrin əvvəllərindən başlayaraq bu günümüzə kimi qiymətli sənədlər saxlanılır. XIX əsrin sonu – XX əsrin əvvəllərinə aid sənədlər Naxçıvan Qəza Polis İdarəsinə, Xalq Məktəbləri Müdiriyyətinə, Torpaq Şöbəsinə, Culfa, Şahtaxtı, Baş Noraşen Gömrük məntəqələrinə, Culfa Post-teleqraf Kontoruna, Ordubad Ali İbtidai məktəbinə aid sənədlərdir. Həmçinin Dövlət Arxivində 1918-20-ci illərdə ermənilərin Naxçıvan, Ordubad, Şərur-Dərələyəz qəzalarına hücumlarını, burada törətdikləri soyqırımı hadisələri haqqında məlumatları özündə əks etdirən sənədlər mühafizə olunur. Burada Naxçıvanda sovet hakimiyyətinin bərqərar olması, İnqilab Komitəsi, Mərkəzi İcraiyyə Komitəsi, Xalq Komissarları Soveti və digər ilk yaranan dövlət qurumlarının sənədləri, Naxçıvan Muxtar Respublikasında yaşayıb, fəaliyyət göstərmiş, Naxçıvanın maarif, elm və mədəniyyətinin inkişafında xüsusi xidmətləri olmuş, həmçinin dövlət quruculuğunda xidmətlər göstərmiş, əmək və fəaliyyətləri dövlət tərəfindən qiymətləndirilmiş şəxslərin də şəxsi fondları mühafizə olunur.

Ümumiyyətlə, bu gün Naxçıvan Dövlət Arxivində 778 fond üzrə 500 minə yaxın kağız əsaslı sənəd, 4157 kinolent, 74 min 861 fotoşəkil qorunub saxlanılır. Arxivin komplektləşdirmə mənbəyi idarə, müəssisə və təşkilatlar olduğundan sənəd qəbulu ilboyu davam edir.

Bunu da qeyd edək ki, 2012-ci ildə Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi əsaslı təmir edilmiş, idarə müasir standartlara uyğun müasir avadanlıqlarla, o cümlədən sənədlərin saxlanması üçün şkaf, qutu, havatənzimləyici kondisionerlər və digər lazımi vasitələrlə təchiz olunmuşdur. 2016-cı ildə idarədə struktur dəyişiklikliyi aparılaraq Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin nəzdində Naxçıvan Şəhər Arxivi yaradılmışdır.

Dövlət Arxivi daim yeni-yeni sənədlərlə zənginləşir. 2016-cı ildə Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin əməkdaşları Azərbaycan Respublikası Milli Arxivində və onun tabeliyində olan arxivlərdə işgüzar ezamiyyətdə olmuş, muxtar respublika ilə bağlı sənədlər aşkar edilərək Naxçıvan Dövlət Arxivinə gətirilmişdir. Bu sənədlər arasında xüsusilə çox qiymətli olanlar Naxçıvan əyalətinin, Naxçıvan şəhərinin, Ordubad və Şərur-Dərələyəz qəzasının kameral siyahılarıdır. Bu kameral siyahılar çox mükəmməl işlənərək əhalini siyahıya almışdır.

2023-cü il noyabr ayının 21-də AMEA Naxçıvan Bölməsində Türkiyə arxivlərindən toplanmış xüsusi əhəmiyyətə malik 500-ə yaxın sənəd (3000 səhifə) Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinə təhvil verilmişdir. 2023-cü ilin 11 ayı ərzində Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində idarə, müəssisə, təşkilat və məhkəmə orqanlarından 997 məktub daxil olaraq cavablandırılmış, həmçinin 2609 sosial-hüquq xarakterli sorğulardan 2566 sorğu icra olunmuşdur. Elmi-tədqiqat müəssisəsi olduğundan bu il 20 tədqiqatçı arxiv fond sənədlərindən elmi-tədqiqat üçün istifadə etmişdir.

*Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqının mənəvi, çox qiymətli, əvəzolunmaz tarixi sənədlərinin qorunub gələcək nəsillərə çatdırılması üçün arxiv təşkilatları haqqında söylədiyi fikirlər bütün dövrlər üçün aktualdır:* ***"Azərbaycan Respublikasının arxiv xidməti təşkilatları xalqımızın çoxəsrlik tarixini öyrənmək üçün qiymətli sənədlərin toplandığı və mühafizə olunduğu elmi-tədqiqat mərkəzləridir".***

**Zülfiyə İSMAYILOVA**
***Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin şöbə müdiri, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi***

## Əməkdaşlıq haqqında razılıq əldə olunub



Naxçıvan Dövlət Universiteti ilə xarici ölkələrin ali təhsil müəssisələri arasında əməkdaşlığın gücləndirilməsi, birgə proqramların təşkili məqsədilə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev və rektor müşaviri Rəcəb Cəfərli Macarıstanın Metropolitan Universitetində olublar.

Universitetdə keçirilən görüşlərdə bildirilib ki, Metropolitan Universiteti Macarıstanın ən böyük özəl ali məktəbidir. Universitetdə biznes, marketinq, incəsənət, media, kommunikasiya və turizm sahələri üzrə geniş bakalavr və magistratura proqramları var. Metropolitan Universiteti UNESCO-nun Dünya İrsi departamenti ilə rəsmi qaydada əməkdaşlıq edir.

İkitərəfli görüşdə Naxçıvan Dövlət Universiteti ilə Metropolitan Universiteti arasında media, marketinq və İncəsənət fakültəsinin dizayn ixtisası üzrə əməkdaşlıq haqqında razılığa gəlinib, birgə elmi-tədqiqat işlərinin hazırlanması və konfransların keçirilməsi planlaşdırılıb.

Bu əməkdaşlıq incəsənət sahəsində beynəlxalq səviyyədə inkişaf edən dizayn təcrübələrini birləşdirərək tələbələr və tədqiqatçılar üçün unikal imkanlar yaradacaq.

***Naxçıvan Dövlət Universitetinin Media və ictimaiyyətlə əlaqələr bölməsi***

## Ailə təsərrüfatçıları və sahibkarlarla maarifləndirici görüş keçirilib

Qaraxanbəyli Kənd Mərkəzində ailə təsərrüfatçıları və sahibkarlarla "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın 2023-2024-cü illər üzrə icra planına uyğun sahibkarlıq subyektlərinin dövlətin güzəştli maliyyə dəstəyi mexanizmləri, qablaşdırma və tara, o cümlədən kənd təsərrüfatı məhsullarının emalı üzrə müxtəlif təyinatlı müəssisələrin yaradılmasının təşviqi məqsədilə görüş keçirilib. Tədbiri giriş sözü ilə Naxçıvan Şəhər İcra Hakimiyyətinin əməkdaşı İqbal Allahverdiyev açaraq görüşün əhəmiyyətindən danışıb.

Maarifləndirici görüşdə çıxış edənlər bildirib ki, ailə təsərrüfatı modeli ölkəmizin bütün bölgələrində olduğu kimi, muxtar respublikamızda da əhali məşğulluğunun ən geniş yayılmış formalarından biridir. İqtisadi məşğuliyyət sahəsi kimi ailə təsərrüfatlarının bir çox müsbət tərəfləri var. Bu sahədə görülən tədbirlərin davamı olaraq ailə təsərrüfatlarına zəruri dövlət maliyyə dəstəyi göstərilir, güzəştli kreditlər ayrılır.

Vurğulanıb ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın 2023-2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planı" təsdiq edilib. Həmin Təfsilatlı Tədbirlər Planında sahibkarlıq subyektlərinə güzəştli kreditlərin verilməsi, zəmanət və digər dəstək mexanizmlərinin tətbiq dairəsinin genişləndirilməsi, Naxçıvan Muxtar Respublikasında istehsal olunan məhsulların digər bazarlara ixracını təşviq



etmək məqsədilə logistik dəstək verilməsi və sair məsələlər öz əksini tapıb.

Çıxış edənlər Təfsilatlı Tədbirlər Planında nəzərdə tutulan məsələlərin icra əhəmiyyəti barədə də danışıb, tədbir iştirakçılarını maraqlandıran sualları cavablandırıblar.

✍ **Nail ƏSGƏROV**

### *İtmişdir*

Şərur rayonunun Kürçülü kənd sakini Kərimova Yasəmən Hacı qızının adına olan 102013016142 reyestr nömrəli plan-ölçü və çıxarış itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Qarxun kənd sakini Abdinov Təmnixa Möhsün oğlunun adına verilmiş JN-367$^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayon Təzəkənddə yaşamış Əsgərov Dadaş Hüseyn oğlunun adına olan JN-078$^{A}$ nömrəli, 10314028 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, 59-cu məhəllə, 1/14$^{A}$ ünvanda Novruzova Rahilə Allahverdi qızının adına olan AA-005645 inventar nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor müavini:
MƏMMƏD BABAYEV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 725